# "MCB LİZİNQ"

## QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ
## VƏ
## MALİYYƏ HESABATI

## 31 DEKABR 2017-Cİ İL

## BAŞA ÇATAN İL ÜZRƏ

**"MCB LİZİNQ" QSC**

**MÜNDƏRİCAT**


| | Səhifə |
|---|---|
| Rəhbərliyin məsuliyyəti üzrə hesabat | 3 |
| Müstəqil auditorun hesabatı | 4-5 |
| Maliyyə vəziyyəti haqqında hesabat | 6 |
| Məcmu gəlir haqqında hesabat | 7 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 8 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 9 |
| | |
| Maliyyə hesabatlarına qeydlər | |
| | |
| 1. Ümumi məlumat | 10 |
| 2. Maliyyə hesabatlarinin tərtib edilməsinin əsasları | 10 |
| 3. Əhəmiyyətli uçot siyasətləri | 11 |
| 4. Standartlar, şərhlər və düzəlişlər | 17 |
| 5. Torpaq, tikili və avadanlıqlar | 19 |
| 6. Qeyri-maddi aktivlər | 20 |
| 7. Maliyyə lizinqi üzrə xalis investisiya | 20 |
| 8. Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər | 20 |
| 9. Pul vəsaitləri və onların ekvivalentləri | 21 |
| 10. Təminatlı və digər bank kreditləri və borclar | 21 |
| 11. Digər cari öhdəliklər | 21 |
| 12. Nizamnamə kapitalı | 22 |
| 13. Əməliyyat xərcləri | 22 |
| 14. İnzibati xərclər | 22 |
| 15. Mənfəət vergisi | 22 |
| 16. Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar | 23 |
| 17. Şərti öhdəliklər və təəhhüdlər | 24 |
| 18. Maliyyə aktivləri və öhdəliklər | 25 |
| 19. Maliyyə risklərinin idarə olunması | 26 |
| 20. Hesabat tarixindən sonra baş vermiş hadisələr | 31 |

## RƏHBƏRLİYİN MƏSULİYYƏTİ ÜZRƏ HESABAT

Şirkətin rəhbərliyi "MCB LİZİNQ" Qapalı Səhmdar Cəmiyyətinin ("Şirkət") maliyyə hesabatlarının və aidiyyatı qeydlərin hazırlanması üçün məsuliyyət daşıyır. Bu hesabatlar Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğunb olaraq hazırlanmışdır və şirkət rəhbərliyinin hesablamaları və mülahizələrini özündə birləşdirir.

Şirkət əmlakının qorunmasına, maliyyə əməliyyatların rəhbərliyin icazəsi ilə həyata keçirilməsinə və müvafiq qaydada sənədləşməsinə, həmin yazılışların maliyyə hesabatlarının və maliyyə informasiyalarının hazırlanması üçün istifadə edilə bilməsinə şərait yaradan daxili uçot sisteminin, prosedurların, qaydaların yaradılmasını təmin edir. Sistem özü-özünün nəzarət mexanizminə malikdir ki, bu da rəhbərlikdə həmin nəzarət, müəssisənin administrativ prosedurları və daxili hesabatvermə standartlarının səmərəliliyi üzrə əminlik yaranmasına imkan verir. Daxili nəzarət sistemlərinin effektlivliyi sahəsində insan səhvləri və sisteminin tələblərindən yan keçməyin mümkünlüyü də daxil olmaqla məhdudiyyətlər vardır. Hətta səmərəli daxili nəzarət sisteminin özü belə maliyyə hesabatlarının hazırlanması sahəsində tam əminlik verə bilməz.

Cənab Rəmal Cəfərov
İdarə heyətinin sədri

Cənab S. Muzammil Nur
Maliyyə direktoru

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti
MCB LEASING

Bakı, Azərbaycan Respublikası

18 yanvar 2017-ci il

MOORE STEPHENS

Moore Stephens Azerbaijan MMC
13, Zeynalabdin Taghiyev Street
Baku AZ1005, Azerbaijan

T +994 12 490 77 47/48/49
F +994 12 490 77 50

baku@moorestephens.az
www.moorestephens.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

### "MCB LİZİNQ" QSC-nin Direktorlar Şurası və Rəhbərliyinə

***Rəy***

Biz, "MCB LİZİNQ" QSC- nin (bundan sonra "Şirkət") 31 dekabr 2017-ci il tarixində bitən il üzrə maliyyə vəziyyəti haqqında hesabatları, məcmu gəlir, kapitalda dəyişikliklər, pul vəsaitlərinin hərəkəti haqqında həmin tarixdə bitən il üzrə hesabatlar, mühüm uçot siyasətlərinin xülasəsi və digər izahlı məlumatı əks etdirən qeydlərdən ibarət verilmiş maliyyə hesabatlarını audit etdik.

Fikrimizcə, maliyyə hesabatları "MCB LİZİNQ" QSC-nin 31 dekabr 2017-ci il tarixinə olan maliyyə vəziyyətini və həmin tarixdə bitmiş il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında hesabatları bütün əhəmiyyətli aspektləri baxımından Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq obyektiv şəkildə təqdim edir.

***Rəy üçün əsaslar***

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə hesabatları üçün rəhbərliyin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə hesabatları üçün Auditorların məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Moore Stephens Azerbaijan

Bakı, Azərbaycan Respublikası

18 yanvar 2018-ci il

Azərbaycan Respublikası * Məhdud Məsuliyyətli Cəmiyyəti * MOORE STEPHENS AZƏRBAYCAN * Limited Liability Company * The Republic of Azerbaijan

| | Qeyd | 2017 | 2016 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 5 | 54,175 | 69,854 |
| Qeyri-maddi aktivlər | 6 | - | 579 |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 7 | 3,035,266 | 3,969,421 |
| Təxirə salınmış vergi aktivi | 15 | 304,477 | 483,396 |
| **Cəmi uzun müddətli aktivlər** | | **3,393,918** | **4,523,250** |
| **Cari aktivlər** | | | |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 7 | 3,597,242 | 3,773,752 |
| Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər | 8 | 161,299 | 158,317 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 1,083,727 | 1,333,166 |
| **Cəmi cari aktivlər** | | **4,842,268** | **5,265,235** |
| **Cəmi aktivlər** | | **8,236,186** | **9,788,485** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təminatlı kreditlər | 10 | 4,491,656 | 4,903,180 |
| Digər bank kreditləri və borclar | 10 | 500,000 | 398,408 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **4,991,656** | **5,301,588** |
| **Cari öhdəliklər** | | | |
| Təminatlı kreditlərin cari hissəsi | 10 | - | 174,000 |
| Digər bank kreditlərinin və borcların cari hissəsi | 10 | - | 1,600,174 |
| Digər cari öhdəliklər | 11 | 137,677 | 240,346 |
| **Cəmi cari öhdəliklər** | | **137,677** | **2,014,520** |
| **Cəmi öhdəliklər** | | **5,129,333** | **7,316,108** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 12 | 4,283,675 | 4,283,675 |
| Yığılmış zərərlər | | (1,176,822) | (1,811,298) |
| **Cəmi capital** | | **3,106,853** | **2,472,377** |
| **Cəmi capital və öhdəliklər** | | **8,236,186** | **9,788,485** |

Cənab Rəmal Cəfərov
İdarə heyətinin sədri

MCB Lizinq
MCB LEASING
Qapalı Səhmdar Cəmiyyəti

Cənab S. Muzammil Nur
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası

18 yanvar 2018-ci il

6-31-ci səhifələrdə əks olunmuş maliyyə hesabatları 18 yanvar 2018-ci il tarixində rəhbərlik tərəfindən təsdiqlənərək imzalanmışdır.

**"MCB LİZİNQ" QSC**
**MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31 DEKABR 2017-Cİ İL TARİXİNƏ**
**(Azərbaycan manatı ilə ifadə olunmuşdur)**

| | Qeyd | 2017 | 2016 |
|---|---|---|---|
| Maliyyə lizinqi üzrə faiz gəliri | | 1,753,278 | 1,612,075 |
| Faiz xərci | | (504,704) | (497,581) |
| **Xalis faiz gəliri** | | **1,248,574** | **1,114,494** |
| Haqq, komissiya və brokerlik gəliri | | 89,009 | 98,804 |
| Xarici valyuta mübadiləsindən xalis (zərər)/qazanc | | 188,585 | (564,749) |
| Digər gəlir | | 7,950 | 381 |
| **Əməliyyat gəliri** | | **1,534,118** | **648,930** |
| Əməliyyat xərcləri | 13 | (439,550) | (417,338) |
| İnzibati xərclər | 14 | (241,866) | (235,785) |
| **Debitor borcları üzrə ehtiyatlardan əvvəlki (zərər)/mənfəət** | | **852,702** | **(4,193)** |
| Debitor borcları üzrə ehtiyatlar | 8 | (39,307) | 33,128 |
| **Vergidən əvvəlki (zərər)/mənfəət** | | **813,395** | **28,935** |
| Mənfəət vergisi üzrə xərc | 15 | (178,919) | (4,244) |
| **Vergidən sonrakı (zərər)/mənfəət** | | **634,476** | **24,691** |
| Digər məcmu gəlir: | | - | - |
| **İl üzrə məcmu mənfəət** | | **634,476** | **24,691** |

Cənab Rəmal Cəfərov
İdarə heyətinin sədri

Cənab S. Muzammil Nur
Maliyyə direktoru

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti MCB LEASING

Bakı, Azərbaycan Respublikası

18 yanvar 2018-ci il

6-31-ci səhifələrdə əks olunmuş maliyyə hesabatları 18 yanvar 2018-ci il tarixində rəhbərlik tərəfindən təsdiqlənərək imzalanmışdır.

"MCB LİZİNQ" QSC
XÜSUSI KAPİTALIN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 DEKABR 2017-Cİ İL TARİXİNƏ
(Azərbaycan manatı ilə ifadə olunmuşdur)

| **Kapitalın hərəkəti haqqında hesabat** | **Nizamnamə kapitalı** | **Yığılmış zərər/mənfəət** | **Cəmi kapital** |
|---|---|---|---|
| **1 yanvar 2016-cı il tarixinə** | **4,283,675** | **(1,835,989)** | **2,447,686** |
| İl üzrə mənfəət | - | 24,691 | **24,691** |
| Nizamnamə kapitalında artım | - | - | - |
| **31 dekabr 2016-cı il tarixinə** | **4,283,675** | **(1,811,298)** | **2,472,377** |
| İl üzrə mənfəət | - | 634,476 | **634,476** |
| Nizamnamə kapitalında artım | - | - | - |
| **31 dekabr 2017-ci il tarixinə** | **4,283,675** | **(1,176,822)** | **3,106,853** |

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti MCB LEASING

Cənab Rəmal Cəfərov
İdarə heyətinin sədri

Cənab S. Muzammil Nur
Maliyyə direktoru

Bakı, Azərbaycan Respublikası

18 yanvar 2018-ci il

6-31-ci səhifələrdə əks olunmuş maliyyə hesabatları 18 yanvar 2018-ci il tarixində rəhbərlik tərəfindən təsdiqlənərək imzalanmışdır.

| | Qeyd | 2017 | 2016 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət/(zərər) | | 813,395 | 28,935 |
| *Düzəlişlər:* | | | |
| Torpaq, tikili və avadanlıqların köhnəlməsi | 5 | 15,729 | 16,556 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 6 | 579 | 2,317 |
| Xarici valyuta ilə əməliyyatlardan xalis qazanc/(zərər) | | 188,585 | 564,749 |
| Debitor borcları üzrə ehtiyat | | 39,307 | (33,128) |
| | | **1,057,595** | **579,429** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Maliyyə lizinqi üzrə xalis investisiya | | 1,110,665 | (426,226) |
| Avanslar, qabaqcadan ödənişlər və digər cari aktivlər | | (42,289) | 41,802 |
| Digər cari öhdəliklər | | (102,669) | 94,391 |
| | | **965,707** | **(290,033)** |
| **Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaiti** | | **2,023,302** | **289,396** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak və avadanlığın alınması | 5 | (50) | (942) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(50)** | **(942)** |
| **Maliyyə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Təminatlı kreditlərdən əldə edilmiş vəsaitlər | | (2,272,691) | 74,740 |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul vəsaiti** | | **(2,272,691)** | **74,740** |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(düşmə) | | **(249,439)** | **363,194** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 9 | **1,333,166** | **969,972** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 9 | **1,083,727** | **1,333,166** |

Cənab Rəmal Cəfərov
İdarə heyətinin sədri

Cənab S. Muzammil Nur
Maliyyə direktoru

MCB Lizinq
MCB LEASING
Qapalı Səhmdar Cəmiyyəti

Bakı, Azərbaycan Respublikası

18 yanvar 2018-ci il

6-31-ci səhifələrdə əks olunmuş maliyyə hesabatları 18 yanvar 2018-ci il tarixində rəhbərlik tərəfindən təsdiqlənərək imzalanmışdır.

## 1. ÜMUMİ MƏLUMAT

### a) Başlıca fəaliyyət

MCB Lizinq QSC ("Şirkət") 16 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və daimi yerləşmişdir. Şirkət səhm ilə məhdudlaşan qapalı səhmdar cəmiyyət kimi Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılmışdır. Şirkət Azərbaycan Respublikası Vergilər Nazirliyində 1701045991 qeydiyyat nömrəsi ilə 15 oktyabr 2009-cu il tarixində qeydiyyatdan keçmişdir.

Şirkətin əsas biznes fəaliyyəti Azərbaycan Respublikasında maliyyə lizinqi əməliyyatlarını həyata keçirməkdən ibarətdir. Şirkət müxtəlif sənaye avadanlıqlarını, tibbdə istifadə olunan avadanlıqları, ictimai nəqliyyatı və infrastruktur layihələr və digər işgüzar məqsədlər üçün lazım olan əmlakı lizinqə verir. Bundan başqa, Şirkət maşınları, yük maşınlarını və dəmiryol vaqonlarını lizinqə verir. Şirkət lizinq aktivlərini Azərbaycan Respublikasında olan təchizatçılardan və xarici təchizatçılardan alır.

Şirkət Azərbaycan Respublikası , Bakı (AZ 1065) Tbilisi prospekti 49B ünvanında yerləşir. MCB Bank Limited, Pakistanda fond birjasında qeydiyyata alınmış açıq səhmdar cəmiyyəti, buraxılmış nizamnamə kapitalının 99.94%-nə sahibdir və Şirkətin əsas təsisçisidir. 31 dekabr 2017-ci il və 31 dekabr 2016-cı il tarixlərinə Şirkətin nizamnamə kapitalının sahibləri aşağıdakılardır:

| | **31 dekabr 2017-ci il Təsisçi payı, %** | **31 dekabr 2016-cı il Təsisçi payı, %** |
|---|---|---|
| MCB Bank Limited (Pakistan) | 99.94 | 99.94 |
| Cənab Cəfərov Rəmal (fiziki şəxs) | 0.06 | 0.06 |
| **Cəmi** | **100** | **100** |

### b) Fəaliyyət Mühiti

Şirkətin biznes fəaliyyətinə Azərbaycan Respublikasının iqtisadi, siyasi və nizamlama sahələri və beynəlxalq müqavilələr təsir edir. İşlərə dair ümumi risklərə hökumət siyasəti, iqtisadi şərait, vergi rejimi və xarici valyuta nizamlamaları istiqamətində sürətli dəyişikliklərin mümkünlüyü və biznes sövdələşmələri zamanı puldan real istifadəni tərkibində birləşdirir. Rəhbərlik inanır ki, vergi borclarını vergi qanunvericiliyinə uyğun şəkildə ödəmişdir. Rəhbərlik, mövcud şəraitdə davamlılığı və şirkətin biznes inkişafını təmin etmək üçün bütün lazımi tədbirlərin görüldüyünü hesab edir.

## 2. MALİYYƏ HESABATLARININ TƏRTİB EDİLMƏSİNİN ƏSASLARI

### a) Tərtibatın Əsasları və Uçot Prinsiplərinin Xülasəsi

Şirkətin bu maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun hazırlanmışdır. Şirkət ilkin mühasibat yazılışlarını Azərbaycan qaydalarına uyğun həyata keçirir. Maliyyə hesabatları şirkətin maliyyə uçotundan hazırlanmışdır və Beynəlxalq Maliyyə Hesabatları Standartlarına bütün əhəmiyyətli aspektlər baxımından uyğun etmək üçün düzəlişlər edilmişdir. Maliyyə Hesabatları ilkin dəyər prinsipinə əsasən, fəaliyyətin fasiləsizliyi əsasında hazırlanmışdır. Hesabatların Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun hazırlanması bəzi ilkin mühasibat qiymətləndirilməsindən istifadə etməyi tələb edir. Bu həmçinin, şirkətin uçot siyasətinin tətbiqi prosesində rəhbərliyin peşəkar mühakimədən istifadə etməsini tələb edir.

## 2. MALİYYƏ HESABATLARININ TƏRTİB EDİLMƏSİNİN ƏSASLARI (DAVAMI)

### b) Xarici valyutanın dəyişdirilməsi

*i. Funksional və təqdimat valyutası*

Maliyyə Hesabatlarındakı maddələr Şirkətin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası ("funksional valyuta") olan Azərbaycan manatı (AZN) ilə ifadə olunub.

*ii. Əməliyyatlar və qalıqlar*

Xarici valyuta ilə baş tutan əməliyyatlar Azərbaycan Respublikasının Mərkəzi Bankının ("ARMB") əməliyyat gününə olan xarici valyuta məzənnəsini istifadə etməklə funksional valyutaya çevrilir. Xarici valyuta ilə bu cür əməliyyatlar üzrə hesablaşmalardan yaranan gəlirlər və itkilər, xarici valyutalarda ifadə olunan pul aktivləri və öhdəlikləri ilin sonunda çevrilmə zamanı valyuta məzənnəsindən yaranan fərqlər məcmu gəlir haqqında hesabatda tanınır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının 31 dekabr 2017-ci və 31 dekabr 2016-cı illərdə müəyyən etdiyi manatın valyuta məzənnələri aşağıdakılar idi:

| | 31 Dekabr 2017 | 31 Dekabr 2016 |
|---|---|---|
| 1 ABŞ Dolları- AZN | 1.7001 | 1.7707 |

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ

### a) Təqdimat və Uçot Siyasətinin Mühüm Əsasları

Maliyyə hesabatları Şirkətin 31 dekabr 2017-ci il tarixinə olan maliyyə hesabatlarını əhatə edir.

Şirkətin maliyyə hesabatları uyğun hesabat siyasətindən istifadə etməklə həmin hesabat müddəti üçün hazırlanmışdır. Maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatları Standartlarına ("BMHS") uyğun şəkildə hazırlanmışdır. Bu hesabatlar şirkətin əməliyyat valyutası olan Azərbaycan valyutası ilə (AZN) mühasibat uçotlarına əsaslanır və baş vermiş əməliyyatlar əsasında hazırlanmışdır. İnterpretasiya üzrə Daimi Komitə tərəfindən təsdiqlənən şərhləri və Beynəlxalq Maliyyə Uçot Standartlarına dair maliyyə hesabatları Beynəlxalq Uçot Standartları Şurası ("BUSŞ") tərəfindən təsdiqlənmişdir. Maliyyə Hesabatlarının hazırlanmasında mühasibat prinsipləri mütəmadi olaraq tətbiq edilmişdir.

### b) Maliyyə alətlərinin ilkin tanınma və ölçülmə qaydaları

Şirkət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya öhdəliklərini öz maliyyə vəziyyəti haqqında hesabatında tanıyır. Maliyyə aktivlərinin və öhdəliklərinin adi yolla alınması və satılması zamanı əməliyyat hesablaşma günü tanınır. Sonradan əməliyyat və hesablaşma tarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Maliyyə aktivləri və öhdəlikləri, ədalətli dəyər, ədalətli dəyəri mənfəət və ya zərərdə əks olunmayan maliyyə aktivləri və ya maliyyə öhdəlikləri üçün, maliyyə aktivi və ya maliyyə öhdəliyinin alınması və ya buraxılması ilə birbaşa bağlı əməliyyat xərcləri əlavə olunmaqla tanınır.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ (DAVAMI)

### b) Maliyyə alətlərinin ilkin tanınma və ölçülmə qaydaları (davamı)

*Maliyyə öhdəliklərin ölçülməsi və təsnifatı*

- Maliyyə öhdəlikləri ticarət və digər öhdəlikləri və əlaqəli tərəflərə ödəniləcək məbləğləri təşkil edir.
- Maliyyə öhdəlikləri effetkiv faiz dərəcəsi istifadə emtəklə amortizasiya edilmiş dəyərlə ölçülür
- Bütün faizlə bağlı xərclər maliyyə xərclərinə daxil edilir.

***Lizinqin tanınması və ölçülməsi***
Lizinqin uçotu 17 №-li BMUS və 4 №-li BMHŞK-ya əsasən aparılır. Aktiv maliyyə lizinqinə verildiyi halda, lizinq ödənişlərinin diskontlaşdırılmış dəyəri debitor borcu kimi tanınır.

***Lizinqin başlanğıcı***
Lizinqin başlanğıcı kimi lizinq müqaviləsinin tarixi və ya təəhhüd tarixindən ən tez olanı hesab edilir. Bu izahın məqsədləri üçün təəhhüd yazılı, əməliyyata daxil olan tərəflər tərəfindən imzalı olmalı və xüsusilə, əməliyyatın əsas şərtləri əksini tapmış olmalıdır.

***Lizinq müddətinin başlanması***
Lizinq müddətinin başlanması tarixi lizinq alanın lizinq predmeti üzərində istifadə hüququnu əldə etdiyi tarix hesab edilir. Bu, lizinqin ilkin tanındığı tarixdir.

***Lizinq üzrə debitor borcların dəyərdən düşməsi***

Şirkətin lizinqin ilkin müqavilə şərtləri üzrə olan borclarını toplaya bilməməsi barədə obyektiv sübut olarsa, gecikmə üzrə ehtiyat yaradılır. Ehtiyatın məbləği lizinqin şübhəli hesab edildiyi zaman balans dəyəri ilə lizinqin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış lizinq aktivinin satışından yaranan gözlənilən daxilolmaların hazırki dəyəri olmaqla, bərpa edilə bilən məbləğ arasındakı fərqdir.

Ehtiyat məbləği, həmçinin, hesabat tarixində lizinq portfelinin komponentlərində mümkün zərərlərin mövcud olduğu barədə obyektiv sübut olduğu halda həmin zərərləri əhatə edir. Onlar lizinqə aid olan gələcək səciyyəvi zərərlər və hər bir komponentdə olan itkilərin ilkin nümunələri və müştərinin fəaliyyət göstərdiyi iqtisadi mühit əsasında qiymətləndirilmişdir.

### c) Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyəri ilə əks etdirilir. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri nağd pul vəsaitlərindən, tələbli depozitlərdən, digər qısamüddətli və məlum olan pul vəsaitinə çevrilməyə hazır olan yüksək likvidli investisiyalardan ibarətdir.

### d) Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar, yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, ilkin dəyərdə qeydə alınır. İlkin dəyər tikinti xərcləri və ya alış qiymətindən, o cümlədən idxal rüsumları və geri qaytarılmayan vergilərdən və aktivin istifadəyə yararlı vəziyyətə gətirilməsinə birbaşa aid olan digər xərclərdən ibarətdir. Hər hansı güzəştlər və geri qaytarılmış məbləğlər tikinti xərcləri, yaxud alış qiymətindən çıxılır.

Kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Torpaq, tikili və avadanlıqların əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır.

Avadanlıqların bütün növləri lazım olduqda, yığılmış amortizasiyanı və dəyərsizləşmə üzrə zərəri çıxmaqla (əgər varsa), ilkin dəyərdə qeydə alınır.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ (DAVAMI)

### d) Torpaq, tikili və avadanlıqlar (davamı)

Hər bir hesabat tarixində rəhbərlik, torpaq, tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Torpaq, tikili və avadanlıqlar dəyərsizləşdikdə, binalar və avadanlıqlar satış xərcləri çıxmaqla onların ədalətli dəyəri ilə istifadə dəyərindən daha yüksək olan dəyərə silinir. Aktivin balans dəyərindəki azalma məcmu gəlir hesabatında qeydə alınır. Aktivin istifadəsi nəticəsində əldə edilən dəyərin və ya satış xərcləri çıxılmaqla, onun ədalətli dəyərinin müəyyən edilməsi üçün istifadə edilən təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə əvvəlki dövrlərdə hər-hansı aktiv üçün qeydə alınmış dəyərsizləşmə üzrə zərər bərpa edilir.

Satışdan yaranan gəlir və zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və məcmu gəlir hesabatında əks etdirlir.

### e) Köhnəlmə

Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya bərabər çıxılmalar metoduna, yəni torpaq, tikili və avadanlıqların təxmin edilən faydalı xidmət müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | |
|---|---|
| Mebel, qurğular və digər | 10% |
| Ofis və kompyuter avadanlığı | 20% |
| Nəqliyyat vasitələri | 20% |
| Digər əsas vəsaitlər | 20% |

Aktivin artıq köhnəldiyi və istismar müddəti başa çatdığı halda, satış üzrə təxmin edilən xərclər çıxılmaqla, Şirkətin həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmin edilən məbləğ aktivin qalıq dəyəridir. Şirkət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı xidmət müddəti lazım olduqda hər bir balans tarixində nəzərdən keçirilir və dəqiqləşdirilir.

### f) Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər ilk olaraq ilkin dəyərdə tanınır. Qeyri-maddi aktivlər hər hansı amortizasiya və dəyərdən düşmələr çıxıldıqdan sonra uçota alınır. Aşağıdakı düzxəttli amortizasiya metodundan istifadə etməklə qeyri-madi aktivin dəyəri son qalıq dəyərinə qədər azaldılır:

| | |
|---|---|
| Kompüter proqram təminatı | 33% |

### g) Amortizasiya

Amortizasiya aktivin dəyərindən və ya bunu əvəz edən digər dəyərdən aktivin qalıq dəyərini çıxmaqla hesablanır.

### h) Gəlirin tanınması

Lizinq gəlirlərinin tanınmasında maliyyə üsulu istifadə olunur. Bu üsulla gələcəkdə qazanılacaq lizinq gəliri (cəmi lizinq debitorlarının artıq məbləği və lizinq aktivlərinin dəyərinin hesablanmış qalıq dəyəri) təxirə salınır və lizinq müddəti üzrə sabit faiz dərəcəsini tətbiq etməklə gəlirə aid edilir. Lizinq müqavilələrinə xitam verildikdə yaranan qazanclar/itkilər realizə edildiyi halda mənfəətə aid edilir.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ (DAVAMI)

### i) Maliyyə alətləri

***Debitor borclar***

Debitor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan dəyərsizləşmə üzrə ehtiyatı çıxmaqla, effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində ölçülür. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat, Şirkətin müəyyən edilmiş ilkin müddətdə bütün borc məbləğlərini toplaya bilməyəcəyinə obyektiv sübutlar mövcud olduqda yaradılır. Müştərilər üzrə debitor borcları ilə əlaqədar ödənişinin gecikdirilməsi (30 gündən çox gecikdirmə) bu kateqoriyadan olan debitor borcların dəyərsizləşməsini əks etdirən əlamətlər hesab edilir. Debitor borcların digər kateqoriyaları üçün dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- debitor borcun hər hansı hissəsinin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- qarşı tərəfin əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Şirkətin qarşı tərəf haqqında əldə etdiyi maliyyə məlumatları ilə təsdiqlənməsi;
- qarşı tərəfin müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi riskinə məruz qalması;
- qarşı tərəfə təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi;

Ehtiyatın məbləği, aktivin balans dəyəri ilə əvvəlki effektiv faiz dərəcəsinə əsasən diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin dəyəri arasındakı fərqi təşkil edir. Aktivin balans dəyəri ehtiyat hesabından istifadə etməklə azaldılır və zərərin məbləği məcmu gəlir hesabatında qeydə alınır. Debitor borcları qaytarıla bilmədikdə onlar debitor borcları üzrə ehtiyat hesabından silinir. Əvvəlki dövrdə silinmiş məbləğlərin sonradan bərpa edilməsi məcmu gəlir hesabatında gəlirə yazılır.

***Kreditor borclar***

Kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı hesablanır. Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş maya dəyərində qiymətləndirilir.

***Kreditlər və debitor borclar***

Kreditlər və debitor borcları dəqiq və ya təyin ediləbilən ödənişli, aktiv bazarda kotirovkası olmayan və ödəniş müddəti hesabat tarixindən sonra 12 ay ərzində olan qeyri-derivativ maliyyə aktivləridir. Şirkətin kredit və alınacaq vəsaitləri debitor borcları və digər alınacaq vəsaitlər və maliyyə vəziyyəti hesabatında əlaqəli tərəflərdən alınacaq vəsaitlərdən ibarətdir.

***Mənfəət və zərər üzrə ədalətli dəyərdə maliyyə aktivləri***

Mənfəət və zərər üzrə ədalətli dəyərdə maliyyə aktivləri ticarət üçün saxlanılan aktivləridir. Maliyyə aktivi bu kateqoriya üzrə o halda təsnifatlaşdırılır ki, əgər aktiv qısa müddət ərzində satılması məqsədi ilə əldə edilmişdir. Hesabat dövrü üzrə Şirkətin mənfəət və zərər üzrə ədalətli dəyərdə maliyyə aktivləri mövcud olmamışdır.

***Maliyyə aktiv və öhdəliklərinin uçotunun xitamı***

**Maliyyə aktivləri**

Maliyyə aktivinin (və ya, maliyyə aktivinin bir hissəsi, və ya eyni maliyyə aktivləri qrupunun bir hissəsi) uçotuna aşağıdakı hallarda xitam verilir:

- Aktiv üzrə pul vəsaitlərinin alınma hüququnun müddəti başa çatdıqda;
- Aktiv üzrə pul vəsaitlərinin alınma hüququnu Şirkət digər tərəfə ötürdükdə, və ya aktiv üzrə pul vəsaitlərinin alınma hüququnu saxlayaraq, lakin razılaşma əsasında əhəmiyyətli gecikmə olmadan onları üçüncü şəxsə ödənilməsi üzrə öhdəlik nəzərdə tutulduqda; və
- Şirkət, (a) aktiv üzrə bütün risk və mükafatları əhəmiyyətli dərəcədə digər şəxslərə ötürdükdə; və ya (b) aktiv üzrə bütün risk və mükafatlar həm əhəmiyyətli dərəcədə keçirilməmiş həm də saxlanmamışdır , lakin aktiv üzrə nəzarət digər tərəfə ötürülmüşdür.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ (DAVAMI)

### i) Maliyyə alətləri (davamı)

***Maliyyə aktiv və öhdəliklərinin uçotunun xitamı (davamı)***

**Maliyyə aktivləri (davamı)**
Maliyyə aktivinin uçotuna o zaman xitam verilir ki, bu aktiv digər tərəfə ötürülmüşdür və bu ötürülmə xitam olunma kriteriyalarına müvafiqdir. Ötürülmə kriteriyaları tələb edir ki, Şirkət: (a) aktivlər üzrə pul vəsaitlərinin alınmasına dair müqavilə hüquqlarını ötürür; və ya (b) aktivlər üzrə pul vəsaitlərin alınmasına dair müqavilə hüquqlarını özündə saxlayır, lakin müqavilə öhdəlikləri üzrə bu pul vəsaitlərini üçüncü tərəfə ödəməyi öhdəsinə götürür. Ötürmədən sonra Şirkət ötürülmüş aktiv üzrə risk və mükafatların saxlanılan dərəcəsini yenidən qiymətləndirir. Əgər əsasən bütün risk və mükafatlar saxlanılmışdırsa, aktiv maliyyə vəziyyəti hesabatında qalır, əgər əsasən bütün risk və mükafatlar ötürülmüşdürsə, aktivə xitam verilir. Əgər əsasən bütün risk və mükafatlar nə saxlanılıb, nə də ötürülmüşdürsə, Şirkət aktiv üzrə nəzarətinin saxlanılmasını yenidən qiymətləndirir. Əgər nəzarət saxlanılmamışdırsa aktivə xitam verilir. Şirkət aktiv üzrə nəzarətini saxladıqda, o aktivi müvafiq aid olma dərəcəsi ilə tanımağa davam edir.

***Maliyyə öhdəlikləri***
Maliyyə öhdəliyinə bu öhdəliyin silinməsi, ləğv edilməsi və ya müddətinin başa çatması hallarında xitam verilir. Mövcud olan maliyyə öhdəliyi eyni kreditor tərəfindən əsasən digər şərtlərlə dəyişdirildikdə və ya mövcud olan öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə dəyişdirilmə ilkin öhdəliyə xitam verilməsi və yeni öhdəliyin tanınması kimi maliyyə vəziyyəti hesabatında əks etdirilir, və müvafiq fərq məcmu gəlir hesabatında tanınır.

***Maliyyə aktiv və öhdəliklərin əvəzləşdirilməsi***
Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüquq olduqda və ya eləcədə müqavilə üzrə əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda həyata keçirilə bilər. Maliyyə aktivlərinin müvəqqəti olaraq qarşı tərəfə transfer edilməsi zamanı bu maliyyə aktivləri qarşı tərəfin öhdəliyi ilə qarşılaşdırılmır.

### j) Dəyərsizləşmə

Mənfəət və ya zərər nəticəsində ədalətli dəyərini itirən maliyyə aktivi hər hansı bir dəyərsizləşmənin əsaslı sübutunu təyin etmək üçün hər bir hesabat dövründə qiymətləndirilir. Əgər əsaslı sübut zərərin aktivin ilkin tanınmasından sonra baş verməsini və həmin zərərin etibarlı qiymətləndirilə bilən aktivin gələcək qiymətləndirilmiş pul vəsaitlərinin hərəkətinə mənfi təsir göstərməsini əks etdirirsə, maliyyə aktivi dəyərsizləşdirilir.

Maliyyə aktivlərinin (iştirak payı hüququ verən qiymətli kağızlar da daxil olmaqla) dəyərsizləşməsinin əsaslı sübutu debitor tərəfindən borcun ödənilməsindən imtina və ya xəta, şirkətin əks halda nəzərə alınmayacağı şərti ilə şirkətə ödəniləcək məbləğin restrukturizasiyası, debitor və ya emitentin müflisləşəcəyi göstəriciləri, şirkətdə borcalanların və emitentlərin ödəniş statusunun əks istiqamətdə dəyişmələri, aktiv qiymətli kağız bazarının defoltuna və itkisinə birbaşa təsir göstərən iqtisadi şərtlərdən ibarət ola bilər. Bundan əlavə, xüsusi kapital qiymətli kağızlara investisiyada ədalətli dəyərinin maya dəyərindən əhəmiyyətli və ya uzunmüddətli azalması dəyərsizləşməsinin əsaslı sübutudur.

### k) Cari vergiqoyma

***Gəlir vergisi***
Gəlir vergisi hazırkı maliyyə hesabatlarında Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat tarixinə qüvvəyə minmiş Azərbaycan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Gəlir vergisi xərci cari və təxirə salınmış gəlir vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə digər məcmu gəlirlərdə və ya kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlir hesabatında qeydə alınır.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ (DAVAMI)

### k) Cari vergiqoyma (davamı)

***Gəlir vergisi (davamı)***
Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda, təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

### l) Təxirə salınmış vergiqoyma

Təxirə salınmış vergi maliyyə hesabatlarında aktivlərin və öhdəliklərin balans dəyərləri və vergi tutulan mənfəətin hesablanmasında istifadə edilən müvafiq vergi əsasları arasındakı fərq üzrə ödənilməsi və ya bərpa edilməsi gözlənilən vergidir və öhdəliklərin uçotu metodundan istifadə etməklə uçota alınır.

Təxirə salınmış vergi öhdəlikləri adətən vergi tutula bilən bütün müvəqqəti fərqləri üzrə tanınır və təxirə salınmış aktivlər çıxıla bilən müvəqqəti fərqlərin istifadə oluna bilməsinə dair vergiyə cəlb edilən mənfəətin əldə edilməsi ehtimalının mövcud olacağı zaman hesablanır. Müvəqqəti fərq nə vergi mənfəətinə, nə də uçot mənfəətinə təsir göstərməyən əməliyyatda digər aktiv və öhdəliklərin ilkin tanınmasından yarandığı halda belə aktivlər və öhdəliklər tanınmır.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat tarixində təhlil edilir və aktivin bütöv və ya qismən bərpa olunacağına imkan verməsi üçün mövcud olacaq kifayət qədər vergi tutulan mənfəətlərin artıq mümkün olmadığı halda azaldılır.

Təxirə salınmış vergi öhdəliyi tətbiq edilməsi ödənildiyi və ya aktivin realizə olduğu dövrdə gözlənilən vergi dərəcələri ilə hesablanır. Təxirə salınmış vergi ümumi gəlir haqqında hesabata aid edilmişdir. Burada verginin birbaşa kapitala aid edilən maddələr ilə bağlı olması istisna halıdır, çünki təxirə salınmış vergi də kapitala aiddir.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri aşağıdakı şərtlər olduğu halda əvəzləşdirilir və maliyyə vəziyyəti haqqında hesabatda xalis şəkildə göstərilir:

- Qrupun cari gəlir vergisi aktivlərini və cari gəlir vergi öhdəlikləri əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş qarşılıqlı əvəzləşdirmə hüququ var; və
- Gəlir vergilərinə aid təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri üzrə eyni vergi tutulan müəssisəsi üzrə eyni vergi orqanı tərəfindən vergi çıxılır.

Həmçinin, Azərbaycan Respublikasının Şirkətin fəaliyyəti üzrə qiymətləndirilən digər müxtəlif vergiləri mövcuddur. Bu vergilər ümumi gəlir haqqında hesabatda əməliyyat xərclərin komponenti kimi daxil edilib.

### m) Maliyyə gəliri və xərcləri

Maliyyə xərclərinə borc üzrə faiz xərcləri yaradılan ehtiyatlar və kompensasiya üzrə diskontun faiz dərəcələrinin çözülməsi, satış üçün saxlanılmış maliyyə aktivlərinin satışı üzrə zərərlər, öhdəlik kimi qəbul olunan imtiyazlı səhmlər üzrə dividentlər, mənfəət və zərər vasitəsilə ilə ədalətli dəyərdə maliyyə aktivlərinin ədalətli dəyər zərəri və maliyyə aktivlərində tanınan dəyərsizləşmə üzrə zərərləri (debitor borclarından başqa) daxildir.

Şərtlərə cavab verən aktivin əldə olunması, tikintisi və ya istehsalına birbaşa aid edilməyən borclar üzrə məsrəflər effektiv faiz metodundan istifadə olunmaqla mənfəət və zərərdə tanınırlar. Xarici valyuta gəliri və zərərləri xarici valyuta hərəkətlərinin xalis qazanc və ya zərər mövqeyində olmasından asılı olaraq, xalis dəyər əsasında maliyyə gəliri və ya maliyyə xərci kimi bəyan edilir.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ (DAVAMI)

### n) Təqaüdlər

Şirkət Azərbaycan Respublikası dövlət pensiya sistemindən asılı olmayan heç bir təqaüd razılaşmasına malik deyil, hansı ki cari ümumi əmək haqqı ödəmələri faiz kimi hesablanan işçi tərəfindən cari maliyyə yardımı tələb edir. Bu xərclər qeyd edilən əmək haqqı qazanıldığı müddətdə ödənilməsi tələb edilir.

### o) Təminatlar

Təminat o halda təsdiqlənir ki, şirkət əvvəlki hallarla bağlı cari hüquq və ya konstruktiv öhdəliklərə malikdir və ehtimal vardır ki, iqtisadi faydaları əks etdirən resurs daxilolmaları öhdəliklərin yerinə yetirilməsi üçün lazım olsun və etibarlı öhdəlik qiymətləndirilməsi icra edilmiş olsun.

### p) İşçilərə sərf olunan müvafiq ayırmalar

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Pensiya və Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Şirkətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

### q) Xarici valyuta əməliyyatları

Bu maliyyə hesabatları Azərbaycan manatı vasitəsilə təqdim edilir belə ki, Azərbaycan manatı Şirkətin Təşkilatın əməliyyat valyutasıdır. Digər valyutalarla müəyyənləşdirilən sövdələşmələr sövdələşmə tarixinə olan kurs əsasında hesablanacaq. Sövdələşmələrdən alınan pul daxiolmaları və ödənişlər Şirkətin hesabat valyutasında xarici valyuta məbləği xarici valyuta ilə hesabat valyutası arasında daxiolmalar ödənişlər tarixinə olan fərqi istifadə etməklə qeyd ediləcək. Xarici valyuta ilə olan kassa qalığı ilə bağlı hesabat tarixinə olan spot valyuta kursu olan ilin sonuna olan qalıqdan istifadə etməklə hesabat verilir. Xarici valyuta ilə aparılan işlər nəticəsində yaranan mənfəər və zərər məcmu gəlir haqqında hesabatda göstərilmişdir.

### r) Şərti öhdəliklər

Etibarlı qiymətləndirmə edilməsi və öhdəliklərin icrası üçün resurs xərclənməsi tələbi ilə bağlı ehtimal olmadığı halda şərti öhdəliklər maliyyə hesabatlarında bildirilmir. Şərti aktiv maliyyə hesabatında göstərilmir, lakin iqtisadi gəlir axını mümkün olduğu halda açıqlanır.

## 4. STANDARTLAR, ŞƏRHLƏR VƏ DÜZƏLİŞLƏR

Aşağıdakı standartları və məsləhətlər 31 dekabr 2017-ci ildə və daha sonra qüvvəyə minmişdir:

**12 saylı BMHS "Digər Təşkilatlarda iştirak payının açıqlanması"- Düzəliş (1 Yanvar 2017-ci il tarixindən tətbiq ediləcək)**

Düzəliş və BMHS 12, ümumiləşdirilmiş maliyyə məlumatlarının açıqlanmasına dair tələblər istisna olmaqla, 5 saylı BMHS "Satış üçün saxlanılan uzunmüddətli aktivlər və dayandırılmış əməliyyatlar" a əsasən satış üçün saxlanılan və törəmə, birgə, asılı müəssisələr kimi təsnifləşdirilən müəssisələrdəki (və ya satılıq əməliyyat qruplarındakı) maraqlara (paylara) tətbiq edilir

**MHBS 15 "Müştərilərlə Müqavilələr üzrə Gəlirlər" (Qüvvəyə minmə tarixi 1 yanvar 2018)**

